

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 111 (23.753)

*22 iyun 2021-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanı qəbul edib.

Prezident İlham Əliyev Pakistan və Azərbaycanın iki qardaş ölkə olaraq ikitərəfli əlaqələrini gücləndirdiyini diqqətə çatdırıb. İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycana göstərdiyi çox fəal dəstək mövqeyinə görə minnətdarlığını bildirən ölkə başçısı vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan tərəfindən güc və siyasi yolla həll olunub.

Dövlətimizin başçısı bildirib ki, qarşıdakı illərdə hərbi əməkdaşlığı genişləndirmək və tərəfdaşlığı gücləndirmək üçün birgə hərbi təlim və başqa təşəbbüslər planlaşdırılmalıdır.

Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacva Azərbaycan ilə ortaq tərəfdaşlarından birinin də Türkiyə olduğunu, hər üç ölkə arasında sıx əlaqələrin əməkdaşlıq üçün hədsiz imkanlar açdığını vurğulayıb.

Görüşdə nəqliyyat, logistika, energetika, ticarət dövriyyəsi sahələrində əməkdaşlıq məsələləri də müzakirə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Qazaxıstan Respublikasının Baş nazirinin müavini, Xarici İşlər naziri Muxtar Tleuberdini də qəbul edib.

## 2021-ci ilin yanvar-may aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2021-ci ilin yanvar-may aylarında 1 milyard 24 milyon 906 min 300 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz artaraq 2218,9 manata çatmışdır.

***

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 459 milyon 458 min 500 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

***

Vəsait qoyuluşları çərçivəsində 2021-ci ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 406 milyon 222 min 200 manat vəsait yönəldilmişdir ki, bu da bir il önçəki göstəricidən 0,4 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 390 milyon 105 min 400 manatı və ya 96 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***

2021-ci ilin yanvar-may aylarında 59 milyon 320 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 9788 ton, süd istehsalı 37521 ton olmuşdur. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,9 faiz, süd istehsalı isə 1,6 faiz artmışdır.

***

2021-ci ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 23 milyon 920 min 900 manat olmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 9,1 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 17 milyon 665 min 100 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,2 faiz artmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2021-ci ilin yanvar-may aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 85 milyon 314 min 500 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 36,4 faiz çoxdur. Verilmiş kreditlərin 12 milyon 284 min 300 manatı və yaxud 14,4 faizi qısamüddətli, 73 milyon 30 min 200 manatı və yaxud 85,6 faizi uzunmüddətli kreditlər olmuşdur.

***

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

***

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 iyun 2021-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 95027-yə çatmışdır ki, bunun da 82329-u və ya 86,6 faizi aktiv hesablardır. 2021-ci ilin yanvar-may aylarında açılmış 18019 bank hesabının 17984-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 iyun 2021-ci il tarixə 1455-ə çatmışdır.

***

2021-ci ilin yanvar-aprel aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 536,3 manata çatdırılmışdır ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur.

***

1 may 2021-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1818 nəfər artaraq 462 min 112 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Onlayn konfrans keçirilib



*Naxçıvan Dövlət Universitetində "Təhsildə rəqəmsallaşdırma: Elektron təhsil və informasiya cəmiyyəti" mövzusunda onlayn respublika elmi konfransı keçirilib.*

Universitetin rektoru, dosent Elbrus İsayev Azərbaycanda təhsilin modernləşdirilməsi, təhsildə informasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm addımlar atılmasından, muxtar respublikada bu sahədə görülən işlərdən danışıb. Vurğulanıb ki, universitetdə 2012-ci ildən hazırlıqlarına başlanılan "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi çərçivəsində 2015-ci ildən etibarən İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi istifadəyə verilib. Tədris prosesində elektron vasitələrdən, informasiya texnologiyalarından istifadə edilməsinə tam nail olmaq, distant təhsili həyata keçirmək, elektron test imtahanlarında edilən dəyişikliklər bu sahənin ciddi inkişafından xəbər verir. Vurğulanıb ki, ali təhsil ocağında "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsinin icrası və elektron universitetin fəaliyyətə başlaması Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən irihəcmli və əhəmiyyətli layihələrdən biri kimi tarixə düşüb. Rektor universitetdə LMS sistemindən istifadə, "Elektron qeydiyyat jurnalı"nın tətbiqi, Media Mərkəzində hazırlanan teledərslərin tələbələrə çatdırılması kimi görülən işlərdən də danışıb.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il dekabrın 14-də imzaladığı "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" Sərəncama əsasən bu il iyun ayının 16-da universitetdə Texnologiyalar Parkının təməlatma mərasimi keçirilib. Müasir dövrün tələbi olan bu layihənin əsas məqsədi Naxçıvan Dövlət Universitetinin dünya universitetləri sırasında öz yerini tutmasına və müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərməsinə nail olmaqdır.

"IV sənaye dövründə elektron təhsildə inqilablar: meyillər və perspektivlər" məruzəsində AMEA İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Firudin Ağayev bildirib ki, təhsildə 4.0 texnologiyası smart, virtual və rəqəmsal bir inqilabdır. Vurğulanıb ki, müasir texnologiya tədris üçün ən yaxşı metod və üsullar təqdim edir və bu metodları modernləşdirərkən bir çox prosesi avtomatlaşdıraraq inzibati yükü azaldır. Firudin Ağayev elektron tədris sahəsində əsas anlayışlar, elektron təhsil standartlarına qoyulan tələblər, Big Datanın təhsildə rolundan danışıb.

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı, riyaziyyat elmləri doktoru, professor Cavanşir Zeynalov "Tədris robotları", Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Gülşən Hacıyeva "Onlayn tədris modelində universitetlərarası müştərək dərslərin və maarifləndirici tədbirlərin biologiya üzrə müəllim kadrlarının hazırlanmasında mühüm əhəmiyyəti", Naxçıvan Dövlət Universitetinin İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli "Təhsilin keyfiyyətinə İKT-nin təsiri" mövzusunda məruzələr ediblər.

Konfrans 5 bölmə iclası ilə işini davam etdirib. Bölmələrdə 60 tədqiqatçı 48 mövzu ilə məruzə edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Təbii qazla təminat diqqətdə saxlanılır

Muxtar respublikanın yaşayış məntəqələrinin və istehsal sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür.

May ayında muxtar respublikanın şəhər və rayonlarından daxil olan müraciətlərə əsasən "Naxçıvanqaz Servis" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 83 mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 81-i əhali, 2-si qeyri-əhali abonentdir.

Ötən ay Qaz İstismar Xidmətinə tabe şəhər, rayon Qaz İstismarı idarələrinin qəza-dispetçer sahələrinin "***104***" nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə 844 çağırış daxil olmuşdur. Ay ərzində muxtar respublikanın qaz şəbəkəsində 513 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq aradan qaldırılmışdır. Yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur. Qaz İstismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

**2021-ci il “Nizami Gəncəvi ili”dir**

# Poetik çalarla zəngin, dərin məzmunlu fəlsəfi fikirlərin ziyasında...




*Azərbaycan ədəbiyyatı üfüqlərində əbədiyyət günəşi kimi parlayan görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyinin geniş şəkildə qeyd edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müvafiq Sərəncamın imzalanması bütün ədəbiyyatşünaslar, nizamisevərlər, söz dəyərini bilənlər tərəfindən rəğbətlə qarşılanıb. Muxtar respublikamızda da böyük şairin həyat və yaradıcılığına həsr olunan müxtəlif səpkili tədbirlər keçirilməkdədir. Biz də bu əlamətdar hadisə ilə bağlı, dəyərli söz ustadının fəlsəfi fikir dünyasına azacıq da olsa, işıq salmaq naminə redaksiyamıza Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyevi, filologiya elmləri doktoru, professor Sədaqət Həsənovanı, “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin direktoru, şair Kamal Xanəgahlını və Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin direktoru, Azərbaycan dili və ədəbiyyat müəllimi İlahə Fərəcovanı dəvət etmişik.*

***– Hər birinizi redaksiyamızda xoş gördük. Bildiyimiz kimi, ölkə başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2021-ci il “Nizami Gəncəvi ili” elan olunub, artıq ötən müddət ərzində görkəmli şairin həyat və yaradıcılığının gənc nəsil arasında təbliği istiqamətində bir sıra tədbirlər həyata keçirilib, layihələrə start verilib. Asim müəllim, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri olaraq ilk sualımızı məhz sizin cavablandırmağınızı istərdik. Naxçıvan ədəbi mühitinin tanınmış nümayəndəsi kimi bu əlamətdar hadisəni necə xarakterizə edərdiniz?***

**Asim Əliyev:** – Azərbaycan ədəbiyyatının ölməz korifeyləri içərisində Nizami Gəncəvinin özünəməxsus yeri var. Ustad şairimiz dünya poeziyasında heç kəslə müqayisə olunmur. Çünki Azərbaycan ədəbiyyatının dünya mədəniyyətinə bəxş etdiyi nadir dühalardan olan Nizami Gəncəvi “Poeziya günəşi” adlandırılıb, öz sağlığında geniş şöhrət qazanıb, Yaxın və Orta Şərqdə şeirin əbədi taxtında əyləşən qüdrətli söz ustası kimi tanınıb. Sonrakı dövrlərdə dünyanın bir sıra qüdrətli şair və yazıçıları da Nizami Gəncəvinin sənəti qarşısında ehtiramla baş əyiblər. Şair bütün əsərləri ilə insanlığa gözəl həyat həqiqətləri, nəcib duyğular aşılayır. Nizami əsərlərindəki ideal insanın daxili, xarici, mənəvi, fiziki və ictimai gözəlliyi, əzəməti oxucunu daim düşündürür.

Nizami Gəncəvi Azərbaycan ədəbiyyatında elə bir ədəbi məktəb yaradıb ki, bu məktəbin hər bir nümayəndəsi yeni ədəbi məktəb yaratmaq gücündə olub – Nəsimi, Füzuli, Dəhləvi, Nəvai kimi...

Adıçəkilən Sərəncamda qeyd olunduğu kimi Nizami Gəncəvi irsinə Azərbaycanda həmişə xüsusi diqqət göstərilmişdir. Şairin 800 illik yubileyi İkinci Dünya müharibəsi illərində – 1941-ci ildə blokadada yaşayan Leninqradın məşhur Ermitaj muzeyində, müharibə qurtardıqdan iki il sonra – 1947-ci ildə böyük təntənə ilə Moskvada və Bakıda qeyd olunmuşdur. Görkəmli sənətkarın 840 illik yubileyinin keçirilməsi isə ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Sərəncamda deyildiyi kimi, ölməz sənətkarın 1981-ci ildə ulu öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir. Azərbaycanda 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi də məhz ölməz sənətkarın irsinə sevgi və məhəbbətin növbəti bariz ifadəsidir.

***– Əvvəlki yubiley tədbirlərini, görülən işləri sadaladınız. Yeri gəlmişkən, bəs 880 illikdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi “Nizami Gəncəvi ili”ni layiqincə qeyd etmək məqsədilə hansı tədbirləri reallaşdırmağı qarşıya məqsəd qoyub?***

**Asim Əliyev:** – Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə indiyə kimi bir sıra tədbirlər keçirilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda “Nizami Xəmsəsi” layihəsi çərçivəsində bir neçə tədbir təşkil olunub. Kəngərli və Şərur rayonlarının ağsaqqalları, ziyalıları, gəncləri ilə görüşlər keçirilib. Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasında “Şərq poeziyasının günəşi” adlı ədəbi-bədii tədbir də yaddaqalan olub. İlin sonuna kimi bu istiqamətdə tədbirlərimizi Şahbuz, Culfa və Sədərək rayonlarında da keçirəcəyik. Naxçıvan Dövlət Universitetində isə payız aylarında “Poeziya axşamı” təşkil etməyi nəzərdə tutmuşuq.

***– Dünya fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini ecazkar, dərin məzmunlu söz sənəti inciləri ilə bəzəyən görkəmli sənətkarın əsərlərinin əsas ideyasını milli-mənəvi dəyərlərimizin təbliği təşkil edib. Bu mənada, Nizami yaradıcılığının özü onun Azərbaycan xalqına məxsusluğunu bir daha təsdiqləyir...***

**Sədaqət Həsənova:** – Asim müəllimin sözünə qüvvət, həqiqətən də, Nizami Gəncəvinin yazdıqları milli təfəkkürün məhsuludur. Əvvəla, şairin əsərlərindəki adət-ənənələr, tərbiyəvi məsələlər, əxlaqi-etik örnəklər, qonaqpərvərlik, dialoq mədəniyyəti və digər xarakterik xüsusiyyətlər Azərbaycan xalqına məxsusluğu ilə səciyyəvidir. Şairin maraqlı və orijinal fikirlərindən dünyanın tanınmış adamları da istifadə ediblər. Həmin fikirləri ya özlərininki kimi qələmə verib, ya da başqaları onların adına yazıblar. Məsələn, İkinci Dünya müharibəsindən danışan tarixçilər dəfələrlə qeyd ediblər ki, insanlar V.İ.Leninin “Biz hərb istəmirik, ancaq hərbə hazırıq!” devizi ilə alman işğalçılarına qarşı döyüşlərə atılırdılar. Lakin həmin fikrə biz Nizami Gəncəvinin “İsgəndərnamə” poemasında rast gəlirik: “Elə bilmə ki, döyüşdən qorxuruq, biz hərbə hazırıq”. Bundan başqa, şairin həmin əsərdə təsvir etdiyi “Xoşbəxtlər ölkəsi” ideyası da başqaları tərəfindən mənimsənilmişdir. Məlumdur ki, marksizm-leninizm ideyalarının ən böyüyü kommunizm idi ki, hamının eyni səviyyədə yaşayışına “əsaslanırdı”. Həmin ideya da Nizamiyə aiddir. İsgəndərin rast gəldiyi yerdə hamının varı bərabər idi, insanlar xoşbəxt yaşayır, qazandıqlarından qocalar, uşaqlar, qonaqlar, şikəstlər üçün pay ayırır, sonra onları öz aralarında bərabər bölürdülər.

***– Görkəmli söz sərrafı həm də dövrünün bir sıra yaradıcı insanlarından fərqli, maraqlı həyatı ilə diqqətləri çəkib. Belə ki, bəzi mənbələrdə dahi sənətkar saray şairi olmaqdan qətiyyətlə imtina edib. Nizaminin halal zəhməti ilə dolanması barədə faktlar, fərziyyələr təsdiqini tapsa da, ömrünün sonunadək Gəncədə yaşaması, ondan kənara çıxmaması ilə bağlı fikirlər, mülahizələr bir qədər ziddiyyətlidir...***

**Kamal Xanəgahlı:** – Bəli, haqlısınız. Məlumdur ki, Nizami Gəncəvi yaradıcılığı rəmzi mənə kəsb edən fikirlərlə zəngindir. Məsələn, şairin Şirvanşah Axsitana ithaf etdiyi “Leyli və Məcnun” əsərinin “Məcnunun ulduzlara şikayəti” hekayətində Atabəylər dövlətinin hökmdarı Qızıl Arslanın adını çəkməsi olduqca maraqlı faktlardan biridir. Bu hekayətdə bəhs edilən ulduz adlarını, müxtəlif əlamətləri tarixi hadisələr və yer adları ilə ifadə etdikdə görürük ki, Nizami adıçəkilən poemasında fərqli, gizli mənalarla Atabəylərin əsas iqamətgahlarından olan Əlincəqalaya gəlməsi, burada Qızıl Arslanla görüşməsi barədə məlumat vermişdir. Fikrimizcə, bu məlumatların gizli mənalarla ifadə edilməsinin əsas səbəbi o dövrdə hökmdar saraylarında yaşanan ictimai-siyasi münasibətlər də ola bilərdi. Hətta “Leyli və Məcnun” poemasında olan gizli-rəmzi ifadələr Nizami Gəncəvinin Əlincəqalaya atla gəlməsini, “Şah taxtı” adlanan yerdə Qızıl Arslanla görüşməsini, bu zaman şairlə buraya gəlmiş başqa bir nəfərin də olması ilə bağlı ehtimalları irəli sürür. Həmin şəxs, fikrimizcə, onun oğlu Məhəmməd olmuşdur. Ehtimal ki, şair himayəyə götürməsi üçün Məhəmmədi Qızıl Arslana təqdim etmiş, Qızıl Arslanın ölümündən sonra onu Şirvanşah Axsitanın sarayına göndərmişdir. Şirvanşah Axsitanın ölümündən sonra isə Məhəmməd yenidən atasının yanına qayıtmışdır.

Nizami Gəncəvi yaradıcılığında olan bu ibarələri tarixi faktlarla qarşılaşdıranda böyük sənətkarın Naxçıvana – Əlincəqalaya gəlməsi fikrini təsdiqləmək üçün əsas yaranır. Dahi şairin ömürboyu Gəncə torpağından kənara getməməsi fikri ehtimaldır. Onun əsərlərində olan fikirlər əsasında müəyyənləşdirmək olur ki, şair Naxçıvan torpağına xüsusi sayğı duymuş, bu torpağı Nuh Peyğəmbərin ayaq basdığı müqəddəs məkan kimi təsvir etmiş, Naxçıvana gəlmiş, buranın tarixini mükəmməl bildiyi üçün əsərlərində Naxçıvan torpağı barədə maraqlı məlumatlar vermişdir.

***– Böyük şairimizin əsrlərdən bəri yaşayan, dərin fəlsəfi fikirlərlə dolu söz xəzinəsi həm də müxtəlif dövr tədqiqatçılarının əsas araşdırma mövzularından olub. Müasir dövrdə də bu aktual mövzu ədəbiyyatşünas alimlərin diqqətindən kənarda qalmayıb. Bu sahənin tədqiqatçısı kimi, yəqin ki, araşdırma zamanı siz də görkəmli mütəfəkkirin həyat və yaradıcılığı barədə maraqlı faktlarla rastlaşmısınız...***

**Sədaqət Həsənova:** – Qeyd etdiyiniz kimi, Nizami Gəncəvinin yaradıcılığı müxtəlif dövr ədəbiyyatşünas alimləri tərəfindən çox sayda araşdırmaların mövzusu olmuş, şairin həyat və yaradıcılığı haqqında bir-birindən qiymətli fikirlər söylənmişdir. Lakin görkəmli sənətkarın dilçilik elmi tərəfindən araşdırılması haqqında bu sözləri deyə bilmirik. Yəni həmin mövzu ilə bağlı tədqiqatlar ədəbiyyat sahəsində olduğu qədər çox deyil. Bunu, əsasən, şairin fars dilində yazması ilə bağlayırlar və bu səbəbdəndir ki, Azərbaycan ədəbi dili tarixinə aid yazılan kitab və məqalələrdə Nizamiyə yanlış olaraq layiqincə yer verilmir...

***– Halbuki şairin milli sözlərimizi işlədərək dilimizin leksik-qrammatik vahidlərini ədəbi dil faktları səviyyəsinə qaldırması dilimizə çox yüksək münasibətin nəticəsi kimi dəyərləndirilməlidir...***

**Sədaqət Həsənova:** – Bəli, təkcə söz və dil haqqındakı fikirləri kifayətdir ki, Nizami Gəncəvi dilçilik elmi tərəfindən araşdırılsın. Bundan başqa, nitq mədəniyyətinin mühüm amili olan dialoqun ən gözəl örnəklərini yaradan şair dilçilər tərəfindən mütləq tədqiq olunmalıdır. Nizami Gəncəvi ədəbi aləmə gətirdiyi yeniliklərlə yanaşı, əsərlərindəki dialoq mədəniyyəti ilə seçilən söz ustalarındandır. Onun dilində dialoqun əvəzsiz məqamları vardır. Bu anlamda, “Sultan Səncər və qarı hekayəti”, “Kərpickəsən qocanın hekayəti”, “Zalım padşahla düz danışan kişinin dastanı”, “Harun ər-Rəşid ilə dəlləyin dastanı” və digər mənzum hekayələrin dili diqqəti çəkir.

Şairin ən mükəmməl dialoq nümunələrindən biri “Xosrov və Şirin” poemasında Xosrovla Fərhad arasındakı mükalimədir. Nizami Gəncəvi yaradıcılığında dialoqların əksəriyyəti ədalət, bərabərlik, qarşılıqlı ehtiram üzərində qurulmuşdur və dilçilik elminə tədqiqat mövzusu verən maraqlı məsələlərdəndir.

***– Məktəb illərimiz yada düşəndə sevə-sevə mütaliə etdiyimiz, mənəvi dünyamızı kamilliklə zənginləşdirən yaradıcılıq nümunələri sırasında böyük şairimizin “Xəmsə”yə daxil olan beş mükəmməl poeması xatirimizdə canlanır. İlahə xanım, maraqlıdır, bəs bu gün məktəblərimizdə şagirdlərə Nizaminin ədəbi irsi necə aşılanır?***

**İlahə Fərəcova:** – Nizami Gəncəvinin əsərləri pedaqoji prosesdə tərbiyə vasitəsi səviyyəsindədir. Dahi sənətkarın “Sirlər xəzinəsi”nə daxil olan məqalələr və hekayətlərinin bir qismi proqrama salınıb, “Yaralı bir uşağın dastanı”, “Sultan Səncər və qarı” əsərləri tədris olunur.

Bu irsi şagirdlərə aşılamaq müəllimlərin vəzifə borcu olmaqla yanaşı, həm də mənəvi borcudur. Məhz bu məqsədlə Nizaminin əsərlərindən parçalar şagirdlər tərəfindən səhnələşdirilir, onun əsərlərinin süjetləri əsasında şəkillər çəkilir, təqdimatlar hazırlanır və sənətkarın əsərləri əsasında hazırlanmış səhnəciklər şagirdlərə göstərilir. İbtidai siniflərdə uşaqlara şairin poeziyasından sadə nümunələr onların yaş səviyyəsinə uyğun olaraq öyrədilir. Çalışdığım Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbdə ötən dövrdə mövzu ilə bağlı dəyirmi masa və debatlar təşkil olunub, “Nizami Gəncəvi – 880” adı altında tədbir keçirilib. Həmçinin “Nizami Gəncəvi: bəşəriyyətin bədii fikir tarixində yeni səhifə açmış dahi sənətkar” və “Nizami Gəncəvi yaradıcılığı insanlığa və ədalətə çağırış” mövzularında müzakirələr aparılıb.

Aprel ayı – mütaliə aylığı çərçivəsində mütaliəni sevən şagirdlərimiz arasında “Ən yaxşı təqdimat” və “Nizami dünyası” adlı müsabiqələr keçirilib. İlin qarşıdakı dövründə də belə tədbirləri davam etdirmək nəzərdə tutulub.

***– Yaradıcılığa lirik şeirlərlə başlayan, böyük divan yaradan, qəzəl və qəsidələr müəllifi kimi şöhrətlənən, mükəmməl “Xəmsə”si ilə böyük irs yadigar qoyan, bütün bu nailiyyətləri cəmi 68 illik ömrə sığdıran dahi şair yaradıcılığı boyu insanları kamilliyə səsləyən mütərəqqi ictimai-fəlsəfi fikirlər irəli sürüb, məhəbbətə dünyəvi münasibəti, insan taleyi haqqında humanist düşüncələri, həyat amalına çevirdiyi ədalət prinsipi, milli kökə bağlılıq ideyası ilə bütün dövrlərdə aktuallığını, müasirliyini qoruyub saxlayıb…***

**Kamal Xanəgahlı:** – Nizami Gəncəvi yaradıcılığının zahiri və batini mənaları var. Zahiri mənada şair poemalarında nə qədər ayrı-ayrı mövzulardan bəhs etsə də, batini mənada “Xəmsə” bir əlin beş barmağı kimi bir-birinə bağlıdır. Bu mənada, “Xəmsə”də müxtəlif insanların kamilliyindən bəhs edilsə də, bütün kamil xüsusiyyətlər bir insanda cəmləşdirilir. Yəni Nizami Gəncəvinin kamil insanı öz kamilliyi ilə seçilən obrazların müsbət xüsusiyyətlərini özündə cəmləşdirən insandır. Şairin bəhs etdiyi məhəbbət ilahi məhəbbətdən, humanist fikirləri bəşəri ideyalardan, düşüncələri isə milli kökə bağlılıqdan qaynaqlanır. Bu mənada, dahi şairin yaradıcılığı təkrarsızdır.

***– Böyük şairin əsərlərini mütaliə etdikcə doğma Azərbaycan dilinin bədii, qrammatik xüsusiyyətlərinin, nitq qanunauyğunluqlarının da öz əksini tapdığı aydın olur...***

**Sədaqət Həsənova:** – Bəli, Nizami Gəncəvinin əsərlərində çox sayda türkmənşəli, Azərbaycan dilinin qanunauyğunluqlarını əks etdirən sözlərlə qarşılaşırıq. Ustad şairin fikrincə, dünyadakı bütün yaxşılıqlar türklərə xasdır. “Xəmsə”yə daxil olan ilk poemasından başlayaraq şair bütün əsərlərində öz xalqına ehtiramını ifadə etmişdir. “Sirlər xəzinəsi” poemasında dəfələrlə “türk” sözünü işlətmiş, hətta bənzətmələrində milli mənsubiyyətini tez-tez xatırlatmışdır. Məsələn, yasəməndən bəhs edərkən onu türklərin döyüşçü çadırına bənzədir ki, həmin çadır aypara şəklində olmuşdur. Hətta şairin dilində “türk yasəmən” adlı söz birləşməsi ilə qarşılaşırıq ki, bu məcaz yalnız Nizamiyə aiddir və onun əsərlərində qəlibləşmiş bədii üslub faktlarından biridir.

***– Muxtar respublikamızda hər il gənclərdə kitaba maraq yaratmaq, mütaliə mədəniyyəti formalaşdırmaq, oxu vərdişləri aşılamaq üçün müxtəlif layihələr keçirilir. Ali Məclis Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunan “Oxunması zəruri olan kitabların Siyahısı”nda dahi şairin “Sirlər xəzinəsi”, “Nizaminin hikmət və nəsihətləri” də yer alıb...***

**İlahə Fərəcova:** – Həmin əsərlərin şagirdlərimiz arasında müzakirələri təşkil olunur və onlara izah edilir ki, Nizami Gəncəvi kamil insan formalaşdırır. Dahi sənətkarın əsərlərindəki işıq qəlblərə axdıqca dünyamız da işıqlanır. Məhz elə biz müəllimlər də Vətənimiz, millətimiz üçün əsl şəxsiyyət formalaşdırmaq məqsədilə gələcək nəsilləri Nizaminin hikmət və nəsihətləri ilə tərbiyə etməli və daim mütaliəyə istiqamətləndirməliyik...

***– Tarixə nəzər salanda görürük ki, dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığı hər zaman zəngin dəyəri, fəlsəfiliyi, müfəssəlliyi ilə seçilib, bu günədək əksər yazıçı və şairlərin dünyasına əsaslı surətdə təsir göstərib, qələm sahibləri bu ədəbiyyat dühasının söz ümmanına müraciət ediblər. Bu mənada, Naxçıvan ədəbi mühiti, muxtar respublikada yaşayan yazıçı və şairlər də Nizami Gəncəvi dünyasından bəhrələnib, bu dəyərli mirasdan özlərinə pay əxz ediblər...***

**Asim Əliyev:** – Nizami Gəncəvi səkkiz əsrdən artıqdır ki, sözün hökmdarıdır. Naxçıvan ədəbi mühitinin yetirmələri olan şairlər də onun yaradıcılığından ilham alaraq bədii əsərlər yaradıblar. Heyran xanımdan, Ordubadda fəaliyyət göstərən “Əncüməni-şüəra” ədəbi məclisinin üzvləri olan klassik şairlərdən, Hüseyn Caviddən üzübəri qədim Naxçıvanın söz-sənət adamları Nizami irsindən bəhrələnərək gözəl qəzəllər, rübailər, poemalar yazıblar. Hüseyn Razi, Əliyar Yusifli, Hüseyn Əzim, Adil Qasımlı, Kəmalə Ağayeva, Elman Həbib, Vaqif Məmmədov, Muxtar Qasımzadə və onlarla şairimizin yaradıcılığında gözəl poemalar, qəzəllər, rübailər rast gəlirik ki, bu bizim Nizami Gəncəvi irsindən bəhrələnməyimizə əyani sübutdur. Mən də bir şair kimi ustadımızdan bu gün də öyrənirəm.

Nizami Gəncəvi bizim həm keçmişimiz, həm müasirimiz, həm də poeziya aləmində bu gün də yol göstərənimizdir...

***– Qüdrətli söz ustadının çoxcəhətli, dərin məzmunlu həyat və yaradıcılıq yoluna, sənət dünyasına qısa da olsa, nəzər salmaqdan ötrü dəvətimizi qəbul edib redaksiyamıza gəldiyiniz üçün hər birinizə minnətdarlığımızı bildirir, “Nizami Gəncəvi ili”ndə peşə, sənət sahəsindən asılı olmayaraq, görəcəyiniz bütün işlərdə uğurlar arzulayırıq...***

**Hazırladı: Nail ƏSGƏROV**

***“Əkinçi” qəzeti ilə təməli qoyulan milli mətbuatımız özünəməxsus inkişaf yolu keçmiş, xalqımızın sosial-mədəni tərəqqisində mühüm rol oynamışdır. “Şərq qapısı” qəzeti də bir əsrlik tarixi boyunca milli mətbuatımızın inkişafına böyük töhfələr vermiş, Azərbaycanın, həmçinin Naxçıvan Muxtar Respublikasının sosial-mədəni inkişafında özünəməxsus xidmətləri ilə seçilmişdir. Respublikamızın ən qocaman mətbu orqanlarından biri olan “Şərq qapısı” qəzeti nəşrə başladığı ilk gündən muxtar respublikanın bütün xalq təsərrüfatı sahələrinin, həmçinin maarif, mədəniyyət və səhiyyənin əsas təbliğatçı və təşviqatçısı olmuşdur.***

tərtibat işinin, redaktə işinin sirlərini, redaktorluğun hansı məsuliyyətlər yaratdığını, oxucu qarşısına üzüağ çıxmağın yollarını öyrənirik. Bu mənada, “Şərq qapısı” böyük bir məktəbdir. Elə bir məktəbdir ki bu məktəbdən məzun olsan da, ömürboyu onun ustad dərslərinə ehtiyac duyursan, təcrübəsindən yararlanırsan. Bu mənada, bu gün muxtar

*“Şərq qapısı” – 100*

# Məzunları ilə fəxr edən böyük məktəb




Bu il doğma qəzetimizin yüz yaşı tamam olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı bütün mətbuat işçiləri və qəzetin daimi oxucuları tərəfindən sevinclə qarşılanmışdır. Bu Sərəncam təkcə “Şərq qapısı” qəzetinə və onun əməkdaşlarına deyil, muxtar respublikamızda işıq üzü görən bütün şəhər və rayon qəzetlərinə, həmçinin bütün mətbuat işçilərinə verilən yüksək dəyərin ifadəsidir.

Sərəncamda da qeyd olunduğu kimi, “Şərq qapısı” qəzeti Naxçıvanda maarifin, elmin və ictimai fikrin inkişafına mühüm töhfələr vermiş, peşəkar jurnalist kadrların hazırlanmasında baza rolunu oynamışdır. Ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin qayğısı ilə qəzetin böyük formatda nəşri təmin edilmiş, qəzetdə xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar işıq üzü görmüş, 50 illik yubileyi qeyd olunmuşdur. 1990-1993-cü illərdə isə “Şərq qapısı” qəzeti görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirləri və qəbul etdiyi tarixi qərarları geniş xalq kütləsinə çatdırmış, informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizlərdən olmuşdur.

***“Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq vermək, söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir”***, – deyən ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Fərmanı ilə kütləvi informasiya vasitələri üzərindən senzuranın götürülməsi “Şərq qapısı” qəzetinin də tarixində yeni bir səhifənin açılmasına səbəb olmuş, müstəqillik illərində inkişafının ən yüksək pilləsinə yüksəlmişdir.

Bu gün də respublikamızın ana mətbuat orqanı olan “Şərq qapısı”nı hamı sevir, hər kəs sevə-sevə oxuyur. Bu doğma qəzet muxtar respublikamızda yaşayan və fəaliyyət göstərən bütün ziyalıların hər gün ilk olaraq səhifələdiyi, maraqla oxuduğu ən etibarlı informasiya mənbəyidir. Naxçıvan Muxtar Respublikasında yaşayan və elm, mətbuat, ədəbiyyat, mədəniyyət, incəsənət sahələrində çalışan, bu sahədə müəyyən uğurları olan elə bir ziyalı tapılmaz ki, onu “Şərq qapısı” qəzeti ilə bağlayan bağ olmasın. Bu mənada, hər bir naxçıvanlı alimin, jurnalistin, şairin, yazıçının, musiqişünasın, rəssamın, heykəltəraşın bu qəzetlə bağlı mütləq xoş bir xatirəsi vardır. Kiminsə ya ilk məqaləsi, ya ilk şeiri, ya ilk hekayəsi məhz bu qəzetdə dərc olunaraq əbədiləşib, ya da hər hansı bir uğurumuz haqqında bu qəzetdə söz açılıb. Hətta vaxtilə bu qəzetin səhifələrində yer alan hər hansı bir yazıda adımızın çəkilməsi belə, bizlərə sonsuz sevinc, qürur və fərəh bəxş edib.

Bu mənada, məni də bu doğma qəzetə qəlbən bağlayan xoş xatirələrim var. Düzdür, bir şair kimi, mənim ilk şeirim 1991-ci ildə Babək rayonunun mətbu orqanı olan “Şərqin səhəri” qəzetində işıq üzü görüb. Ancaq ilk məqalələrimin ilk ünvanı məhz “Şərq qapısı” olub. Elə həmin ildən – 15 yaşımdan başlayaraq orta məktəb şagirdi olaraq tez-tez qəzetin poçt ünvanına məktublar göndərər, çox vaxt göndərdiyim yazıları elə həmin həftə qəzetin səhifələrində sevinclə oxuyardım. Maraqlısı isə o idi ki, bu yaşda belə yazdığım yazıların əksəriyyəti replika xarakterli olur, narahatlıq doğuran, həllinə ehtiyac duyulan məsələlərdən bəhs olunurdu. Müstəqilliyimizin ilk illərində bu cür problemlərin olduğu isə hamımıza bəllidir. Yaşadığım Babək rayonunun Güznüt kəndində o zaman mövcud olan məktəb probleminin həlli istiqamətində məhz mənim bir yazımdan sonra ciddi addımların atılması bu gün də məni qürurlandırır. Müstəqillik illərində Naxçıvanda tikilən ilk orta məktəb binası kimi də tarixə düşən Babək rayon Güznüt kənd tam orta məktəbi son illərdə inşa olunan çoxmərtəbəli təhsil müəssisələri fonunda birmərtəbəli olması ilə diqqəti cəlb etsə də, məhz mənim “Şərq qapısı” qəzetində dərc olunan məqalələrdən sonra tikildiyi üçün bu gün də gözümdə ən uca məktəb binasıdır.

Orta məktəbin sonuncu siniflərində oxuyarkən, xüsusən 1993-cü ildə “Şərq qapısı” ilə əlaqələrim daha da sıxlaşdı. Jurnalist olmaq eşqi ilə yaşadığımı bilən müəllimlərim bu ixtisasa qəbul olunduğum təqdirdə bu günədək çap olunmuş məqalələrim haqqında hesabat tələb olunacağını bildirmişdilər. Ona görə də daha çox yazır, daha çox çap olunmağa çalışırdım. Bu işdə “Şərq qapısı” qəzeti bir müəllim kimi mənə çox böyük stimul verir, məni öyrədir, get-gedə püxtələşdirirdi. “Şərq qapısı” qəzeti bu gün də bu missiyanı uğurla yerinə yetirir. O bu gün də muxtar respublikamızda Jurnalistika ixtisası üzrə təhsil alan gəncləri öyrədir, onlara həqiqi mənada sənət dərsi verir. Artıq on üç ildir, “Nuh yurdu” qəzetinin redaktoru vəzifəsində çalışan bir mətbuat nümayəndəsi olaraq deyə bilərəm ki, biz bu gün də “Şərq qapısı”ndan öyrənirik. Bu gün də qəzetçiliyin, respublikamızda mətbuat sahəsində çalışan bütün mətbuat işçiləri, respublikamızın digər bölgələrində fəaliyyət göstərən bir çox jurnalist həmkarlarımız “Şərq qapısı” məktəbində aldıqları dərsə görə hər zaman ona minnətdardırlar.

“Şərq qapısı”nın bir məktəb kimi formalaşmasında bu mətbu orqana dövlət səviyyəsində göstərilən diqqət və qayğının böyük rolu olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamı ilə muxtar respublika mətbuatının, həmçinin “Şərq qapısı” qəzetinin inkişafında yeni bir mərhələnin başlanğıcı qoyuldu. 2005-ci ilin iyulunda “Şərq qapısı” qəzetinin fəaliyyətinin daha da yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” Ali Məclis Sədrinin Sərəncamı isə mətbuata göstərilən qayğının daha bir nümunəsi oldu. Daha sonra “Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti” fəxri adının təsis olunması bütün mətbuat işçiləri kimi, bu qəzetin də əməkdaşlarına böyük stimul verdi. 2010-cu ildə “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni kompleksin istifadəyə verilməsi, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün müasir avadanlıqların alınması bu qayğının davam etdiyini bir daha təsdiqlədi. Medianın əhəmiyyətini hər zaman yüksək qiymətləndirən ölkə Prezidentinin “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” 2020-ci il 30 iyun tarixli Sərəncamı və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 1 iyul tarixli “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”nın təsdiq edilməsi ilə bağlı Sərəncamı müstəqilliyimizin və dövlətçiliyimizin təbliğatçısı olan “Şərq qapısı” qəzetinə göstərilən növbəti qayğının ifadəsi oldu.

2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, eləcə də Ali Məclis Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxsin yaradılması da “Şərq qapısı” qəzetinin peşəkarlıq fəaliyyətinin yüksəldilməsində əhəmiyyətli rol oynamışdır. “Şərq qapısı” qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuş, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd olunmuşdur.

*“Şərq qapısı” qəzeti 100 illik fəaliyyəti ilə muxtar respublikamızda işıq üzü görən bütün mətbu orqanlara, şəhər və rayon qəzetlərinə nümunə olmaqla yanaşı, bu gün həm də dövlətçiliyimizin və müstəqilliyimizin təbliğatçısı rolunu oynayır. Naxçıvan Şəhər İcra Hakimiyyətinin mətbu orqanı olan “Nuh yurdu” qəzetinin əməkdaşları adından “Şərq qapısı” qəzetinin kollektivini qəzetin 100 illik yubileyi münasibətilə təbrik edir, dövlətçiliyimizin və müstəqilliyimizin inkişafındakı bu yolda ona daha böyük uğurlar arzulayırıq.*

**Qafar QƏRİB**
***“Nuh yurdu” qəzetinin redaktoru***

## STEAM təlimlərini uğurla başa vuran müəllimlərə sertifikatlar təqdim edilib



2020-2021-ci tədris ilindən etibarən muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM təhsil metodunun tətbiqinə başlanılıb. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən müəllimlərin STEAM təhsili üzrə təlimlərə cəlbi diqqətdə saxlanılır. May-iyun aylarında təşkil olunan növbəti təlimlər başa çatıb. Bununla bağlı keçirilən yekun tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2020-2021-ci tədris ilindən pilot olaraq muxtar respublikanın 15 təhsil müəssisəsində STEAM təhsil metodunun tətbiqinə başlanılıb.

Bildirilib ki, STEAM təhsil metodunun tətbiq edildiyi məktəblərdə artıq şagirdlərə robotexnika, 3D modelləşdirmə və çap, proqramlaşdırma, nano və neyro texnologiyalar, mühəndislik və dizaynerlik bacarıqları öyrədilir. Qısa müddətdə tətbiqinə baxmayaraq, şagirdlər tərəfindən 100-dən çox STEAM və robotexnika layihələri hazırlanıb və Təhsil Nazirliyi tərəfindən təşkil olunan Texnosərgidə nümayiş etdirilib.

Qeyd olunub ki, STEAM təhsilinin muxtar respublikada tətbiqinin əhəmiyyəti nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 7 iyun tarixdə “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində “STEAM Təlim-Tədris Mərkəzi” yaradılacaq, məktəblərdə STEAM kabinələrinin yaradılması istiqamətində işlər davam etdiriləcək, hər il “STEAM təhsil festivalı” keçiriləcəkdir. Bütün bunlar muxtar respublika gəncliyinin XXI əsrin çağırışları əsasında formalaşmasına böyük töhfə verəcəkdir.

Təhsil naziri bildirib ki, Heydər Əliyev adına tam orta məktəbdə yaradılan STEAM Tədris Mərkəzinin imkanlarından yararlanaraq müəllim hazırlığı diqqətdə saxlanılır. Bu günə qədər 100-ü bu mərkəzdə, 150-si isə onlayn qaydada olmaqla, 250 müəllim təlimlərdən yararlanıb. Təlimlər zamanı STEAM metodologiyaları, robotexnika, 3D CAD modelləşdirmə və çap, proqramlaşdırma, mikrobit və arduino texnologiyaları, mühəndislik modulları müəllimlərə öyrədilib, onlarda STEAM dərslərini tədris etmək bacarığı formalaşdırılıb.

Təhsil naziri növbəti təlimləri uğurla başa vurub, sertifikatla təmin olunan 40 müəllimi təbrik edib, yaradılan şəraitə görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

STEAM Tədris Mərkəzinin təlimçisi Fuad Babayev mərkəzdə təşkil olunan təlimlər haqqında məlumat verib. Bildirilib ki, mərkəzdə ümumtəhsil məktəblərində pedaqoji təcrübədə olan tələbələr üçün də təlimlər təşkil edilib. Bununla yanaşı, müəllimlərin də hazırlığında yeni yanaşmalar tətbiq edilir, STEAM təhsili üzrə peşəkarlığın artırılması məqsədilə ilk dəfə olaraq “STEAM Tədris Mərkəzi”ndə beynəlxalq təlimlərdə iştirak etmiş “Hədəf” Şirkətlər Qrupunun əməkdaşları tərəfindən “STEAM və müasir təlim yanaşmaları” mövzusunda təlim keçirilib. Təlimlərə muxtar respublikanın ümumtəhsil məktəbləri ilə yanaşı, ali təhsil müəssisələrinin də müəllimləri cəlb olunub. Növbəti təlimləri 40 müəllim uğurla başa vurub.

Sonra STEAM təhsil metodu üzrə təşkil olunan növbəti təlimi başa vuran müəllimlərə Təhsil Nazirliyinin sertifikatları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## ECAR layihəsinin təqdimatı keçirilib



“Naxçıvan” Universitetində keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, ali təhsil müəssisəsi Avropa Komissiyasının Erasmus + proqramı çərçivəsində ali təhsildə potensialın gücləndirilməsi profili üzrə qrant müsabiqənin qalibi, “Azərbaycanda rektorlar konfransı”nın layihəsi olan ECAR layihəsinin Naxçıvanda yeganə tərəfdaşıdır.

Rektor dünyada gedən əsaslı dəyişikliklər və rəqəmsallaşma şəraitində təhsilimizin qarşısında dayanan yeni çağırış və tələblərdən irəli gələn məsələlərin həlli üçün beynəlxalq səviyyədə universitetlərarası əməkdaşlığın vacibliyini vurğulayıb. Bununla yanaşı, Azərbaycanda ali təhsilin Avropa ali təhsil məkanına inteqrasiyasının sürətləndirilməsi, ali təhsil müəssisələri və digər maraqlı tərəfdaşlar arasında əməkdaşlıq, şəbəkə, ünsiyyət səviyyəsinin effektivliyinin artırılması, ali təhsil müəssisələrinin beynəlxalq əlaqələrinin genişləndirilməsi və universitetlərin beynəlxalq proqramlara daha fəal cəlb olunmasının əhəmiyyətindən danışıb.

“Azərbaycanda rektorlar konfransı” adlı layihənin Avropanın qabaqcıl və müsbət təcrübəsinin ölkəmizdə tətbiqinin önəmini vurğulayan rektor 3 il müddətinə həyata keçiriləcək bu layihənin ali təhsil sisteminin inkişafına yeni töhfələr verəcəyini deyib.

Universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli layihə haqqında ətraflı məlumat verib. Layihənin məqsədi, tərəfdaşları, büdcəsi barədə danışan məruzəçi bildirib ki, bu vasitə həm də əvvəllər Azərbaycanda fəaliyyət göstərmiş Rektorlar Şurasının bərpa olunmasına zəmin yaradacaqdır. Bundan başqa, milli inkişaf strategiyalarına uyğun olaraq universitetlər arasında hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə, layihələrin təşviq edilməsinə, ən yaxşı təcrübə və əməkdaşlığın milli səviyyədə paylaşılmasına imkan verəcək. Tədbirdə tələbələr və rəhbərlik arasında ortaq proqramlar yaratmaq, artan mobilliyi asanlaşdırmağı hədəfləyən milli şəbəkənin formalaşdırmaq baxımından layihənin əhəmiyyəti qeyd olunub.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

*Ağbulaq İstirahət Mərkəzi muxtar respublikamızda ilk kənd turizm infrastrukturunun yaradıldığı məkandır. Bu gün Naxçıvan-Şahbuz turizm marşrutunun Şahbuz-Ağbulaq istiqaməti üzrə səyahətə çıxan turistlər bir anda təbiət gözəllikləri ilə insan əli möcüzələrinin vəhdətinin, insan rifahına xidmət edən bütöv bir rekreasiya-istirahət kompleksinin cazibəsinə düşürlər. Bölgənin füsunkar təbii şəraiti, dəniz səviyyəsindən hündürlüyü, həmçinin bitki örtüyü və canlı aləmi ərazinin hər yerində müxtəlif istirahət proqramları təşkil etməyə hərtərəfli şərait yaradır. Ağbulaq kəndində aparılmış geniş infrastruktur yenilənməsi işləri yerli sakinlərin rahat yaşayışı ilə bərabər, buraya gələn turistlərin də mənalı istirahətinə tam imkan verir. Ona görə də müxtəlif yaş və məşğuliyyət kateqoriyasından asılı olmayaraq, buraya gələn turistləri bir-birindən maraqlı istirahət günləri gözləyir.*

# Gözəl istirahət məkanı Ağbulaq



Dəniz səviyyəsindən iki min metrə qədər hündürlükdə yerləşən Ağbulaqda qışda soyuq, yayda isə özünəməxsus gözəl hava şəraiti olur. İnsan burada özünü hər fəsildə rahat hiss edir. Havanın ideal təmizliyi, oksigen bolluğu, yayda yaşıllığı ilə gözoxşayan, qışda isə ağ örpəyin cəlbedici mənzərəsi insanların əhval-ruhiyyəsinə müsbət təsir göstərir. Əsrarəngiz təbiət guşələri, zümzüməli bulaqlar, mineral su mənbələri, bir-birinə qaynayıb qovuşmuş meşə və kolluqlar, qarla örtülü dağ yamacları, zirvələr buraya gəlmiş turistlər üçün əvəzedilməz təəssürat mənbələridir.

Mərkəz son illərdə qədim diyarımıza gələn qonaqların, tələbə və məktəblilərin ən çox üz tutduqları ünvanlardan birinə çevrilib. Hər il mərkəzdə gənclərin "Yay məktəbi" təşkil olunur, onlar arasında müxtəlif intellektual və idman yarışları keçirilir. Həftənin şənbə, bazar günləri isə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qulluqçularının Ağbulaq İstirahət Mərkəzinə yollanması artıq ənənə halını alıb. Qeyd edək ki, bundan əvvəl – iyunun 5-6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, 12-13-də isə Naxçıvan Muxtar Respublikası Səhiyyə və Vergilər nazirliklərinin kollektivləri mərkəzdə olublar. İyunun 19-20-də isə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın), Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşları həftəsonu istirahətlərini burada keçiriblər. İstirahət müddətində dövlət qulluqçuları mərkəzlə yaxından tanış olub, onlar üçün yaradılan bütün şəraitdən istifadə ediblər. Rahat və geniş istirahət mərkəzində müxtəlif stolüstü və əyləncəli oyunlarda iştirak edib, film izləyiblər. Qonaqlara milli mətbəximizin zəngin və ləziz təamları təqdim olunub. Mərkəzdə istirahət edənlərlə görüşüb onların təəssüratlarını öyrəndik.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı Vüsal Muradov bizimlə söhbətində bildirdi ki, mərkəzdə istirahətimizin mənalı təşkili üçün hər cür şərait yaradılıb. Hər yer təmiz, səliqəli, havasına da söz ola bilməz. Diqqətimi çəkən isə burada oxunması zəruri olan kitabların guşəsinin olmasıdır. Vaxtımız demək olar ki, çox gözəl və səmərəli keçdi.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Azadə Əliyeva isə dedi ki, mərkəzdə yaradılan yüksək şərait və göstərilən xidmət istirahət edənlərin ürə-



yincədir. Mərkəzdə quraşdırılan kanat yolla Ağbulağın zəngin təbiətinin ümumi mənzərəsini daha gözəl müşahidə edə bildik. Ağbulaq Xizək Mərkəzi isə, xüsusilə qış fəslində vaxtını maraqlı, əyləncəli keçirmək istəyənlər üçün idealdır. İki gün ərzində vaxtın necə gəlib keçdiyini hiss etmədik. Buradan xoş təəssüratlarla ayrıldıq.

Qeyd edək ki, ötən şənbə və bazar günləri mərkəzdə, ümumilikdə, 60-dan çox dövlət qulluqçusu istirahət edib.

✍ **Aytac CƏFƏRLİ**

# Naxçıvan Muxtar Respublikası üzrə 21 iyun 2021-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 985 | 82 | 224 | 27,3 |
| 2. | Şərur rayonu | 3866 | 86 | 259 | 30,1 |
| 3. | Babək rayonu | 10823 | 1332 | 3662 | 27,5 |
| 4. | Ordubad rayonu | 1597 | 1088 | 2816 | 25,9 |
| 5. | Culfa rayonu | 5638 | 1437 | 4045 | 28,1 |
| 6. | Kəngərli rayonu | 5998 | 1375 | 3783 | 27,5 |
| 7. | Şahbuz rayonu | 1531 | - | - | - |
| 8. | Sədərək rayonu | 2283 | 731 | 2614 | 35,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32721** | **6131** | **17403** | **28,4** |

# İmtahanlar keçirilib

2021-2022-ci tədris ili üzrə Naxçıvan Qızlar Liseyinə qəbul imtahanı iyunun 19-da Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbdə keçirilib. İmtahanda iştirak etmək üçün aprelin 1-dən mayın 25-dək aparılmış sənəd qəbulunda ümumtəhsil məktəblərinin IV sinfini bitirən 280 qız şagird qeydiyyatdan keçib.



Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 30, riyaziyyat fənni üzrə 30, ingilis dili fənni üzrə 10 sual olmaqla, ümumilikdə, 70 sual təqdim edilib. Sualları cavablandırmaq üçün 150 dəqiqə vaxt verilib. Test formatında keçirilən imtahanda muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul ediləcək. Şagirdlər liseydə V sinifdən təhsil almağa başlayacaqlar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

* * *

İyunun 20-də Dövlət İmtahan Mərkəzi tərəfindən rezidenturaya qəbul imtahanının birinci mərhələsi (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı, birinci cəhd), xarici dillər üzrə doktoranturaya qəbul və xarici dillər üzrə fəlsəfə doktoru imtahanları keçirilib.

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə keçirilən imtahanlar $11^{00}$-da başlanıb, 2 saat 30 dəqiqə davam edib. Rezidenturaya qəbul imtahanının birinci mərhələsi 6 zalda 74 namizədin iştirakı ilə keçirilib və imtahanın idarə edilməsinə 1 imtahan rəhbəri və 7 nəzarətçi cəlb edilib. Burada namizədin təhsil aldığı baza ali tibb təhsili istiqamətinə müvafiq olaraq baza fənləri üzrə bilikləri yoxlanılıb. Namizədlərə 100 test tapşırığı təqdim olunub və hər bir test tapşırığının düzgün cavabı bir balla qiymətləndirilir. Səhv cavablar imtahanın nəticəsinə təsir göstərmir. İkinci mərhələyə imtahanın birinci mərhələsində topladığı bal 40-dan az olmayan namizədlər buraxılırlar.

Doktoranturaya xarici dildən qəbul və fəlsəfə doktoru imtahanı isə 8 zalda 87 namizədin iştirakı ilə təşkil edilib. İmtahanın keçirilməsi üçün 1 imtahan rəhbəri və 8 nəzarətçi cəlb edilib. İmtahanda toplanıla biləcək maksimal bal 50-yə bərabərdir və dinləmə, oxu, dildən istifadə və yazı bloklarının hər biri üzrə balların 20 faizini, ümumilikdə, imtahandan isə minimal keçid balını toplamaq tələb olunur.

İmtahanların nəticələri yaxın günlərdə *http://dim.gov.az* saytında elan ediləcək.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvanda daha bir seminar

*Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının təşkilatçılığı ilə muxtar respublikamızda Azərbaycan Milli Karate Federasiyası tərəfindən hakimlik seminarı keçirilib.*



Milli Karate Federasiyanın Hakimlər Komitəsinin sədri, beynəlxalq hakim Cahangir Babayevin rəhbərliyi, beynəlxalq hakim Vüqar Kərimovun assistentliyi ilə iki gün davam edən nəzəri və praktik seminarda 20-dən artıq yerli hakim iştirak edib. Dərəcəsini artıran 6 hakimə – Nəriman Quliyev (II dərəcə), Vüsal Allahverdiyev, Murtuz Abdullayev, Mirpaşa Kərimov, Qələndər Binyətli və İlkin Şirinova (hər biri III dərəcə) müvafiq sertifikatlar təqdim edilib.

Cahangir Babayev, həmçinin iyulun əvvəli Xorvatiyada təşkil olunacaq karate üzrə gənclərin Dünya Kubokuna yollanacaq Naxçıvan karateçilərinin hazırlıq məşqlərində iştirak edərək onları yarış qaydaları ilə bağlı məlumatlandırıb və əlavə tövsiyələrini verib.

Qeyd edək ki, muxtar respublika idmanında müvafiq sahələr üzrə peşəkar kadr ehtiyatının zənginləşdirilməsi, yerli məşqçi və idmançıların təcrübə artımı məqsədilə hər il müxtəlif seminar, kurs və təlim-məşq toplanışları təşkil olunur. Paralel olaraq qonşu ölkələrin aidiyyəti idman qurumları ilə təcrübə mübadiləsi aparılır, gənc kadrların zəruri sahələr üzrə lisenziya (fəaliyyət sertifikatı) alması üçün təşkilati dəstək göstərilir.

✍ **Ceyhun MƏMMƏDOV**

# Ötən ay bir sıra mədəni tədbirlərlə yadda qalmışdır

Muxtar respublikanın mədəniyyət müəssisələri tərəfindən may ayında da müxtəlif tədbirlər keçirilmişdir. Ötən ayın ən yaddaqalan hadisələrindən biri Azərbaycan milli teatr tarixinə parlaq səhifələr yazmış Naxçıvan teatrının yaradılmasının 138-ci ildönümünün qeyd edilməsi olmuşdur. Bu münasibətlə mayın 11-də C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması əsasında səhnələşdirilmiş "Nizaminin sirlər xəzinəsi" adlı tamaşanın onlayn premyerası keçirilmiş, tamaşa Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin rəsmi internet saytında və sosial şəbəkə hesablarında canlı olaraq yayımlanmışdır.

Mayın 18-də Beynəlxalq Muzeylər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən 200-dən çox maddi mədəniyyət nümunəsi Mədəniyyət Nazirliyinə təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə bağlı nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, eləcə də Kitabxanaçılıq və informasiya ixtisaslarında təhsil alan tələbələr üçün Naxçıvan Dövlət Xalça Muzeyində və Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında müvafiq mövzularda 2 açıq dərs keçilmişdir. Həmçinin Kitabxanaçılıq və informasiya ixtisası üzrə Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Musiqi Kollecinin III kurs tələbələrinin M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında təcrübə keçmələri təmin edilmişdir.



Ötən ay muxtar respublikanın muzeylərini 34 min 529 nəfər yerli, 850 nəfər əcnəbi olmaqla, ümumilikdə, 35 min 379 nəfər tamaşaçı ziyarət etmiş, muzeylərə 85 yeni eksponat daxil olmuşdur. Təhsil və Mədəniyyət nazirliklərinin birgə qrafikinə əsasən Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdlərinə Heydər Əliyev Muzeyində "Ömrünü Vətənə həsr etmiş dahi şəxsiyyət – Heydər Əliyev" və Naxçıvan Dövlət Rəsm Qalereyasında "Azərbaycanın dilbər guşələri" mövzularında açıq dərslər keçilmişdir. Qeyd edək ki, may ayında ümumtəhsil məktəblərinin şagirdləri üçün muzeylərdə, ümumilikdə, 46 açıq dərs keçilmiş, 1 mühazirə oxunmuşdur.

Hesabat ayında muxtar respublikanın kitabxanaları və klub müəssisələri tərəfindən "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti", "İslamda müdrik kəlamlar" kitabı, Sədi Şirazinin "Gülüstan" əsəri, Cek Londonun "Hekayələr"i və digər kitablar olmaqla, 35 kitab müzakirəsi keçirilmişdir. Ötən ay muxtar respublikanın kitabxanalarında tarixi və əlamətdar günlərlə, həmçinin tanınmış şəxsiyyətlərin doğum və anım günləri ilə bağlı 89 mədəni tədbir keçirilmiş, 51 sərgi nümayiş etdirilmiş, sağlamlıq imkanları məhdud 21 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Ötən ay kitabxanalarda yeni oxucu sayı 469, oxucu gəlişi 7 min 789, kitab verilişi isə 38 min 120 nüsxə olmuşdur. Dövr ərzində elektron kataloqa 701 adda kitab işlənmiş, ümumilikdə, elektron kataloqda kitabların sayı 23 min 491-dən 24 min 192-yə çatdırılmışdır. Həmçinin şəbəkəyə 31 kitab (PDF) işlənməklə şəbəkədəki kitabların sayı 3 min 401 olmuşdur. Ay ərzində elektron kitabxanadan 190 lokal, 378 qlobal olmaqla, 568 oxucu istifadə etmişdir.

May ayında nazirliyin gənclər təşkilatının və tabe müəssisələrin gənclər birlikləri üzvlərinin iştirakı ilə keçirilmiş mədəni-kütləvi tədbirlər, həmçinin gənclər tərəfindən hazırlanmış və Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Nizaminin beşliyinə səyahət" adlı kompozisiyanın nümayişi yaddaqalan olmuşdur.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında bir sıra tamaşaların məşqləri davam etdirilmişdir.

May ayının ən əlamətdar hadisələrindən biri də Naxçıvan Dövlət Filarmoniyasının muğam üçlüyünün Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşa şəhərində keçirilmiş "Xarıbülbül" musiqi festivalında iştirakı olmuşdur. Bundan başqa, filarmoniyanın Mahnı və Rəqs Ansamblı ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" V Beynəlxalq Rəsm Festivalında konsert proqramı ilə çıxış etmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

***Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Telli Məmmədova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 490**